# 80 yaşlı babanın orduya dəstəyi

**Qarabağın azadlığı uğrunda başlanan Vətən müharibəsi bütün təntənəsi ilə davam edir. Şanlı Ordumuz yağı düşmənə sarsıdıcı zərbələr endirir, canlı qüvvəsini və hərbi texnikasını sıradan çıxarır.**

Öndə döyüşən Milli Ordumuz, arxada isə xalqımız düşmənə qalib gəlmək üçün qüvvəsini səfərbər edib. Bu gün sözün əsl mənasında “hər şey cəbhə üçün, hər şey qələbə üçün”dür. Hər kəs bu günlər döyüşən ordumuza dəstək üçün əlindən gələni əsirgəmir, hətta imkansızlarımız da belə

Əlbəttə, Azərbaycan dövləti öz ordusunun bütün zəruri ehtiyaclarını ödəyir. Əlavə heç nəyə ciddi ehtiyac yoxdur. Bununla yanaşı, ötən gün sosial şəbəkələrdə yayılan bir xəbər çoxlarının diqqətini çəkdi. Üst-başından yoxsul görünən,



ömrünün ixtiyar çağlarını yaşayan ağsaqqal “ASAN xidmət”ə gələrək, “ay bala, cəbhədəki əsgərlərimizə yardım etməyə gəlmişəm, 180 manat pulum var, bunu onlara göndərmək istəyirəm”,-deməsi hər kəsi şoka salıb: heyrətlə bu ağsaqqala baxıblar. Müdrik qoca soruşub: “Azdır, eləmi?” Deyiblər ki, yox, dünyalar qədərdir. O, 180 manatı Silahlı Qüvvələrə Dəstək Fonduna köçürdükdən sonra “Əsgərə məktub” da yazıb.

Məlum olub ki, Hikmət baba Şəkinin Baş Küngüt kəndindəndir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları Şəkiyə gedərək vətənpərvər ağsaqqalla görüşüblər. Hikmət baba bildirib ki, o, bu pulu ordumuza dəstək məqsədilə verib. Ömrünün ixtiyar çağlarında olsa da, özünün də ön cəbhəyə getmək istəyi, sözün əsl mənasında, Vətənə sevginin bariz nümunəsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

Azərbaycan.- 2020.-8 oktyabr.- S.15.